*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 527-532*

https://doi.org/10.62837/2025.8.527

**QASIMOV RAMİL ELŞAD OĞLU**
*polkovnik-leytenant, Heydər Əliyev adına Hərbi İnstitutun NATO/ Sülh naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrasının baş müəllimi.*
*Heydər Əliyev adına Hərbi İnistitut*
*Bakı şəhəri*
*E-mail: ramilqasimov@mail.ru.*

## HƏRB TARİXİNDƏ ZƏFƏR SƏLNAMƏSİ

Məqalədə 44 günlük vətən müharibəsində qazanılan qələbənin başlıca səbəbləri Azərbaycan və Ermənistan Respublikaları arasında cərəyan etmiş “Dağlıq Qarabağ Konflikti”nin qlobal güclərin maraqlarının toqquşmaları meydanında yeri, əhəmiyyəti və rolu nəzərdən keçirilir.

Azərbaycan və Ermənistan Respublikalarıa rasında 2020-ci il Vətən Müharibəsinin döyüş əməliyyatları və nəticələrindən bəhs edilir.

**Açar sözlər: “**Qarabağ müharibəsi”, “ATƏT-in Minsk Qrupu”, “Qarabağ konflikti”, **“**II Qarabağ müharibəsi”. “Astana əməkdaşlıq formatı”

## ХРОНИКА ПОБЕДЫ В ВОЕННОЙ ИСТОРИИ

**.Гасымов Рамиль Эльшад оглы**

В статье рассматривается роль, место и значение Нагорно-Карабахского конфликта протекающего между Азербайджаном и Арменией в поле столкновений интересов глобальных сил.

Обсуждаются военные действия и итоги Отечественной войны 2020 года между Азербайджанской Республикой и Арменией.

**Ключевые слова:** Карабахская война, шелковый путь, южный Кавказ, конфликт.

## A CHRONICLE OF VICTORY IN MILITARY HISTORY

**Gasimov Ramil Elshad ogly**

The article examines the role, place and significance of the Nagorno - Karabakh conflict between Azerbaijan and Armenia in the field of clashes of interests of global forces.

The military actions and results of the Patriotic War of 2020 between the Republic of Azerbaijan and Armenia are discussed.

**Keywords:** Karabakh war, silk road, South Caucasus, conflict.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 527-532*

## Müqəddimə

1991-ci ildə SSRİ süqut etdikdən sonra kapitalizm və sosializm düşərgələri arasında “dəmir pərdə” düşdü, dünyanın iki qütblük düzəni pozuldu. NATO keçmiş SSRİ respublikalarına və SSRİ təsir sferasına - Varşava Müqaviləsi dövlətləri ərazilərinə genişlənməyəcəyi öhdəliyi götürdü.**[1]** Lakin bu öhdəliyi pozdu. Qərb dövlətləri birləşib Avropa İttifaqı adlı yeni düşərgə yaratdı.**[2]** Kommunizm düşərgəsi məğlub elan edildi və “1946-1992-ci il Soyuq Müharibədə Qələbə” medalı tərtib edildi.**[3]** II Dünya Müharibəsi nəticəsində yaranmış dünyanın düzəni dəyişdi, bir qütblük yarandı. Amerika özünü dünya polisinə, Avropa İttifaqı isə özünü bəşər övladının mədəniyyət beşiyi və dünya hakiminə çevirdi.**[4]** Amerika və Avropa İttifaqı vahid “Qərb” mövqeyindən çıxış edərək, cənuba və şərqə istiqamətlənmiş ekspansiyaya başladı.

Pribaltika ölkələrindən başqa Azərbaycan və Ermənistan da daxil olmaqla 12 possovet ölkəsi Müstəqil Dövlətlər Birliyi adlanan siyasi-iqtisadi qurum, yeni gütb formalaşdırmağa cəhd etdi.**[5]** Lakin bu qurum daha çox kağız üzərində rəsmi fəaliyyət göstərdi və çox keçmədən dağılmağa başladı. Gürcüstan sonra isə Ukrayna bu qurumdan çıxdı.

Rusiya Federasiyası keçmiş possovet ölkələrinin bir qismini əhatə edən “Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı” adlı hərbi blok yaratdı.**[6]** Azərbaycan Ermənistan arasında “Qarabağ konflikti”ndə Rusiya ermənilərə dəstək verdiyindən Azərbaycan bu hərbi bloka daxil olmadı.

Dünyanın vacib iqtisadi, siyasi, hərbi cəhətli ərazilərində yaradılmış konfliktlər təsir və təhdid alətinə çevrildi. Belə konfliktlərdən biri olan “Qarabağ Konflikti”ni beynəlxalq hüquq çərçivəsində həll etmək üçün maraqlı tərəflərdən ibarət “Qərbdə” fəaliyyət göstərəcək “ATƏT-in Minsk Qrupu” adlı format yaradıldı.**[7]**

## Hərbi siyasi vəziyyət.

Amerika və Avropa İttifaqının-“Qərbin” hərbi, siyasi, iqtisadi maraqlar dairəsi genişləndikcə dünyada, “Avropa dəyərləri”, “Demokratiya və insan haqları” şüarı altında rəngli inqilablar edildi və siyasi hakimiyyətlər dəyişdirildi. Narazılar siyasi-iqtisadi sanksiya tətbiq edilməklə təsir altına alındı. Müxaliflərə “diktator”, “terror” damğaları vuruldu və hərbi-siyasi yolla hakimiyyətlər devrildi. Müqavimət göstərənlər terrorla mübarizə pərdəsi altında müharibə ilə məhv edilidi. İraq lideri Səddam Hüseyn, Liviya lideri Müəmmar Qəddafinin göstəri edamları dünyaya nümayiş edildi. Dünyada bir qütblü qloballaşma başladı və güc prinsipi irəli çıxdı. Hadisələrin belə cərəyanını izləyən digər ölkələr Rusiya, Türkiyə, İran, Çin, Hindistan kimi Yaxın Şərq və Asiya dövlətləri Amerika və Avropa koalisiyasının maraq sahəsinin genişlənməsi perspektivində aqibətlərinin necə olacağını anladılar.

“Qərb”- Amerika və Avropa koalisiyası Afrikanın Şimalını və Yaxın Şərqi təsir altına alıb, şimaldan cənuba sadalayaraq, Avropada Rusiya dövlət sərhədi-

Belarus dövlət sərhədi-Qaradəniz sahili hüdüduna qədər irəlilədi və "Gibrid müharibə"nin tam aspektləri ilə toqquşmalara davam etdi. Cənubi Qafqazda Gürcüstan ərazisində Qara dəniz sahilindən quruya çıxıb plasdarm yaratdı və Cənubi Qafqaza girdi. Yaxın Şərqdə Aralıq dənizi-Türkiyə dövlət sərhədi-İran dövlət sərhədi-Fars körfəzi hüduduna qədər irəlilədi və silahlı toqquşmalara başladı. Dünya yenidən qütbləşməyə başladı. Avrasiya əməkdaşlıq formatı adlanan yeni qütbün konturları formalaşdı.**[8]**

**Azərbaycan** yeni və qloballaşan dünya düzənində Qərb-Şərq, Şimal-Cənub arasında, qonşuları ilə balanslaşdırılmış əməkdaşlıq siyasəti apardı, iqtisadi inkişaf yolu ilə getdi. Sülhsevər və faydalı təşəbbüskar siyasətlə Çənubi Qafqazın lakomativinə və liderinə, nəqliyyat, enerji, ticarət kommunikasiyaları paylayıcı məntəqəsinə və dünyanın dini, mədəni, siyası, iqtisadi əməkdaşlıq meydanına çevrildi. Dünya platformalarında uğurlu fəaliyyətləri ilə rəqibləri neytrallaşdırdı, müttəfiqlərinin sayını artırdı. Məqsədyönlü hərbi əməkdaşlıq siyasəti aparmaqla müasir ordu və hərbi sənaye yaratdı. Qonşularının və dünya öklələrinin hərbi siyasi dəstəyini, etimadını və etibarını qazandı.

**Ermənistan** region ölkələrinə ərazi iddiaları ilə çıxış etməklə dünya güclərinin maraqlarını təmin edirdi və belə təcavüzkar siyasət nəticəsində bütün qonşuları ilə əlaqələri pisləşdi. Rusiyanın himayəsinə girməklə Rusiyanın hərbi "Forpost"una çevrildi. İşğalçı siyasət aparmaqla qonşu ölkənin, Azərbaycanın dövlət sərhədlərini pozub beynəlxalq hüquqla tanınmış ərazilərinin zəbt etdi. Azərbaycanın təşəbbüsü ilə regiondahəyata keçirilən dünya əhəmiyyətli enerji, nəqliyyat və kommunikasiya layihələrindən təcrid edildi. Ermənistan ölkə olaraq regionda nəqliyyat və kommunikasiya dalanına çevrildi.

Cənubi Qafqazda **Gürcüstan** 2008-ci ildən Rusiyanın təsirindən çıxmışdı və qərbə meyillənmişdi. Rusiyanın idarəsində olan Ermənistanda isə 2018-ci ildə Amerika və Avropanın siyasi texnoloji dəstəyi ilə rəngli inqilab baş verdi və hakimiyyət dəyişdi. Ermənistan regionda xarici qüvvələrin alətinə çevrildi. Ermənistanda hakimiyyətə gəlmiş qərb meyilli siyasətçilər Rusiya Federasiyasına xəyanət edib "Qərbin" himayəsinə girməyə yönəlik cəhdlər etdi. Region dövlətlərinin maraqlarına zidd fəaliyyətlərə başlayaraq Rusiya, Türkiyə, İran, Gürcüstan və Azərbaycana qarşı Cənubi Qafqazda təhlükə mənbəyinə çevrildi.

Rusiya Ermənistanı zəiflədib özündən asılı salmaq üçün "Dağlıq Qarabağ konflikti Azərbaycanın daxili məsələsidir" mövqeyindən çıxış edərək, "müharibə Azərbaycan Respublikası sərhədləri çərçivəsində cərəyan etdiyi təqdirdə" Kollektiv Təşlükəsizlik Müqaviləsi Təşkilatının Azərbaycana təzyiq etməyəcəyini bildirdi. Lakin Emənistanla müttəfiqlik öhdəliyini tam olaraq yerinə yetirəcəyini elan etdi.

Türkiyə Azərbaycana müttəfiqliyini nümayış etdirdi və haqq işində hərətərəfli dəstəklədi.

Azərbaycan və Türkiyə birgə hərbi təlimlərə başladı. Azərbaycan təlim məqsədi ilə ehtiyat korpus yaratdı. Rusiya, Belarus, Ermənistan, İran, Pakistan, Çin birgə hərbi təlimlərin keçirilməsi ilə Avrasiyada hərbi əməkdaşlıq və həmrəylik nümayiş etdirdi. Rusiya "Qərbin" aviadaşıyıcı gəmi qruplarını məhv edə biləcək uzaq mənzilli "Sirkon" ballistik raketinin uğurlu sınaq buraxışları keçirdi. Azərbaycan BMT kürsüsündən Ermənistanın öz işğalçı siyasətindən çəkinməyəcəyi təqdirdə güc tətbiq edəcəyinin elan etdi.

## Nəticə

Vətən müharibəsində qələbənin qazanılmasının bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, qələbə milli birlik, əzmi, millətin dövlət rəhbərinə dərin inamı və yüksək milli ruh nəticəsində qazanıldı. Ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların nümayəndələri olan gənclər işğalçıya qarşı azadlıq müharibəsində bir yerdə oldular. Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycandakı bütün gənclərin işğalçılara qarşı döyüşlərə bərabər getməsi ölkənin böyük sərvəti idi. Prezident İlham Əliyev bununla əlaqədar olaraq deyirdi: "Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".Gənc vətənpərvər nəsil düşmənə qarşı mübarizədə fədakarlıq etdi. Ölkə rəhbəri torpaqların işğaldan azad edilməsində qəhrəmanlıqlar göstərmiş insanların fəaliyyətini belə qiymətləndirdi: "Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi... Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər". Ölkədə fəaliyyət göstərən siyasi partiyalar və ictimai təşkilatlar bəyanat verərək Vətən müharibəsində dövlətin yanında olsalar da, bəzi anti-milli qruplar fərqli mövqe nümayiş etdirdilər. Ümummili maraqların əleyhinə çıxan və Ermənistan rəhbərliyini nümunə gətirən anti-milli qruplara münasibətlər barədə dövlət başçısı qəti mövqeyini belə ifadə edirdi: "... onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir lider olaydı".Həmin qrupların məqsədi Azərbaycanı qarışdırmaq, xaos və anarxiya yaratmaq, rəhbərliyi hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq idi. Onlar dövləti və milləti əsas vəzifəsindən çəkindirmək istəyirdilər ki, baş daxili çəkişmələrə qarışsın və işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın.Dövlət başçısı belə qruplar haqqında deyirdi: "Bizim şanlı Ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb".İkincisi, qələbənin qazanılmasında iqtisadi amil, Azərbaycanın iqtisadi qüdrəti vacib rol oynadı. İqtisadi hazırlıq olmadan düşmənə qalib gəlmək mümkün

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 527-532*

deyildi. Ölkədə aparılan düzgün iqtisadi siyasət qüdrətli dövlətin yaradılmasında və düşmən üzərində qalib gəlməkdə başlıca rol oynadı. Ermənistan iqtisadi güc baxımından Azərbaycanla rəqabət apara bilməzdi. Dövlət başçısının fikrincə: "...iqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik - istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından. Yəni, biz istənilən meyar üzrə qabaqcıl yerlərdəyik...". Üçüncüsü, müharibədə qələbə qazanılmasında ordu quruculuğu başlıca rol oynadı. Ötən illər ərzində ölkədə ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, müasir ordu, müdəfiə sənayesi, hərbi sənaye kompleksi yaradılmışdı. Azərbaycan Ordusu gücünə görə, dünyanın ilk 50 ordularının cərgəsində idi. Bununla əlaqədar olaraq ölkə başçısı bildirirdi: "... ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir". Dördüncüsü, müharibədə qələbənin qazanılmasında yürüdülən uğurlu xarici siyasət fəaliyyəti, informasiya işi, qonşu dövlətlərlə mehriban münasibətlərin qurulması mühüm rol oynamışdı. Ötən illər ərzində Azərbaycan dövləti bölgədə şəraiti dəyişdirə, tərəfdaşlarının sayını artıra bilmişdi. 2003-2020-ci illərdə Azərbaycanın beynəlxalq məsələlərdə atdığı adımlar barədə danışan Prezident İlham Əliyev deyirdi: "...biz köklü surətdə bölgəmizdə vəziyyəti dəyişdirə bildik. Mən xarici siyasətlə bağlı çıxışlarımda demişdim ki, prioritetlər arasında qonşu ölkələrlə bizim əməkdaşlığımız xüsusi yerə malikdir. Amma bununla bərabər, biz bütün başqa ölkələrlə də münasibətlər qurduq. Bu gün bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun. Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq.".Qələbənin qazanılmasında beynəlxalq hüquqi baza əsaslı yer tutmuşdu. 2005 -ci ilə qədər əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələri olsa da, onlar icra edilmirdi. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası, BMT Baş Məclisi, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı,Qoşulmama Hərəkatı və digərləri uzun müzakirədən sonar aparılan işlər nəticəsində Azərbaycanı qane edən qətnamə qəbul etmişdi. Bütün bunlar ərazilərin işğaldan azad edilməsində beynəlxalq hüquqi baza olmuşdu. Nəhayət, qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahli Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üstün zəkası, yüksək sərkərdəlik məharəti, diplomatiyası qəti iradəsi və strategiyası mühüm rol oynadı. "Qərb" ilə "Şərq" sivilizasiyası toqquşmasının qlobal hərbi, siyasi, iqtisadi təmas xətti üzərində, mərkəzdə yerləşən Çənubi Qafqazda gedən savaşın əsas iştirakçılarının hərbi qarşıdurmasında Azərbaycan Respublikası qalib gəldi. "Avropa dəyərləri", "Demokratiya" simasında "Qərbi" təmsil edən Ermənistan məğlub oldu. Cənubi Qafqazda təzyiq, təhdid, təhlükə mənbəyi və tıxac olan "Dağlıq Qarabağ Konflikti"ni Azərbaycan beynəlxalq hüquqi müstəvidə öz xeyrinə güc yolu ilə həll etdi. Cənubi Qafqazda hərbi, siyasi, iqtisadi problem düyünü olan "Qarabağ

Konflikti" hərbi-siyasi güclə açıldı və öz uzun müddətli həllini tapdı. Qərbin Cənubi Qafqazda təsir aləti olan Minsk Qrupu adlı qurum öz əhəmiyyətini itirdi. "Qərb" Cənubi Qafqazdan sıxışdırılaraq təzyiq rıçaqlarında məhrum edildi. "Şərq dəyərlərinin"-"Avtoritar" idarə sisteminin, "Avropa dəyərləri"-"Demokratik" idarə sistemindən bariz üstünlükləri sivilizasiyaların qlobal qarşıdurmasında öz təsdiqini tapdı. "Avropa dəyərləri"nin və "Demokratiyanın" dünyada ekspansiyası Cənubi Qafqazda dayandı, Yaxın Şərqdə isə sarsıldı. Azərbaycan və Türkiyə müharibənin nəticəsinə həsr edilmiş qələbə paradında Rusiya, İran, Gürcüstan və Ermənistanın daxil ola bilcəyi "altılıq" platformasının yaradılması təklifini səsləndirdi. Bu bəyanatla Şimal Buzlu okeandan-Hind okeanı sahilinədək ərazidə Qərb ilə Şərq, Şimal və Cənub arasında bütün kommunikasiyaları əhatə edəcək hərbi, siyasi, iqtisadi əməkdaşlıq formatın konturları elan edildi.

Türkiyə ölkənin şərq sərhədlərində "etibarlı və tərəfdaş qonşu", Naxçıvandan yaradılacaq quru nəqliyyat dəhlizi vasitəsi ilə Azərbaycan ərazisindən Xəzər dənizinə və "Türk Dünyası"na bir başa çıxış əldə etdi.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**

1. Rus diplomat: "NATO bizi aldatdı…". https://axar.az/news/planet/42428.html.
2. Avropa İttifaqı — Vikipediya, https://az.wikipedia.org/wiki/Avropa İttifaqı.
3. Медаль «За победу в холодной войне» — Википедия. https://ru.wikipedia.org/wiki.
4. "Мировой полицейский" или "защитник демократии"? .https://news.tut.by/culture/538660.html.
5. Müstəqil Dövlətlər Birliyi — Vikipediya. https://az.wikipedia.org/wiki.
6. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı — Vikipediya. https://az.wikipedia.org/wiki.
7. ATƏT-in Minsk qrupu — Vikipediya. https://az.wikipedia.org/wiki.
8. Avrasiya İqtisadi İttifaqı — Vikipediya. https://az.wikipedia.org/wiki
9. Böyük şaxmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. Z.K.Bjezinski. "Qanun" nəşriyatı 2011-ci il. Səhifə 73-74.
10. 27 sentyabr 2020-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin "Qismən səfərbərlik haqqında" sərəncamı.
11. Azərbaycan Respublikası Müdafiə Nazirinin №0709 30 sentyabr 2020-ci il tarixli əmri.
12. KİV və internet şəbəkəsinə qismən məhdudiyyətin tətbiq edilməsi haqqında sərəncam.
13. Elmi Əsərlər Məcmuəsi № 2(39) Heydər Əliyev adına Hərbi İnstitutun jurnalı. II Qarabağ müharibəsinin nəticələri.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Hüseyniyyə Şobanocva**